# Quba, Qusar rayonlarında turizmin inkişafı, təşviqi və idarə olunması diqqət mərkəzindədir

Turizm dövlətin qeyri-neft sektorunda daha çox önəm verdiyi mühüm sahələrdən biridir. Bu gəlirli sahə ildən-ilə inkişaf edir, genişlənir. 2008-ci ildən yerlərdə Turizm İnformasiya Mərkəzləri fəaliyyət göstərmişdir. Həmin mərkəzlərin vəzifəsi turizm məhsulları haqqında məlumatlara dair imkanları araşdırmaq, onların inkişafını təmin etmək və turistlər arasında tanıdılmasını təşkil etməkdən ibarət olmuşdur. Zaman keçdikcə, bu qurumun funksiya və vəzifələri



də dəyişmiş, 2019-cu ilin fevral ayından bölgələrdə, o cümlədən Qubada Destinasiya Menecmenti Təşkilatı (DMT) fəaliyyətə başlamışdır.

**Quba DMT-nin direktoru Heybət Vəliyev** bu təşkilatın funksiya, vəzifələri və görülən işlər barədə məlumat verərək deyir: əsas vəzifəmiz Quba və Qusar rayonlarında turizmin inkişafı, təşviqi və idarə olunması, eləcə də yerli səviyyədə dövlət və özəl sektor, icma arasında əlaqələrin qurulması, insan resurslarının inkişaf etdirilməsi, standartların hazırlanması və həyata keçirilməsindən ibarətdir. Bildiyiniz kimi, Quba, Qusar rayonları böyük turizm potensialına malikdir. Fəaliyyətə başladığımız gündən Quba, Qusar rayonlarında bir çox tədbirlər və dəyərləndirmələr həyata keçirilmiş, yeni turizm məhsulları araşdırılmış, mərkəzin vahid turizm məhsulları bazası yaradılmışdır. Yerli tədbirlərə turizm yanaşması gətirmək və daha çox ziyarətçi cəlb etmək yönündə Regional Mətbəx Festivalı adlı tədbirə öz töhfələrimizi vermiş və burada təşkilatçı qismində iştirak etmişik. Qarşıda turizm məhsullarının inkişafı yönündə bir çox layihələr planlaşdırılır. Bu layihələri Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun dəstəyi ilə həyata keçiririk.

Quba DMT fəaliyyətə başladığı vaxtdan etibarən Quba və Qusar rayonlarında keçirilən tədbirlərdə aktiv surətdə iştirak etmişdir. İyunun 21-də Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Quba Destinasiya Menecmenti Təşkilatının ictimaiyyətə təqdimedilmə mərasimi baş tutub. Həmçinin, yerli icma nümayəndələri, yerli sahibkarlarla və sairə ilə görüşlər keçirilmişdir. İlk kütləvi tədbirimiz Regional Mətbəx Festivalı adlı festival olmuşdur. Festival Quba DMT və Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı və Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi və Quba Rayon İcra Hakimiyyətinin dəstəyi və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin tərəfdaşlığı ilə iyulun 27-28-də Quba şəhərində keçirilmişdir. Festivalda yerli və regional icma nümayəndələrinin, yerli istehsalçıların və turizm sahəsinin peşəkarlarının məhsulları nümayiş olunub.





Quba Destinasiya Menecmenti Təşkilatı tərəfindən tariximiz, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində bir çox işlər görülür. Öncəliklə, rayonumuzun turistik baxımdan əlverişli maddi və qeyri-maddi turizm məhsullarının siyahısı tərtib olunmuşdur. Buraya tarixi abidələr, milli mətbəx nümunələri, keçirilən festivallar, tədbirlər, etnik kəndlər, xalça sexləri və sairə aiddir. Həmin turizm məhsulları turizm marşrutlarına daxil edilmişdir. Qarşıdan gələn aylarda Quba DMT tərəfindən yeni bukletlər, broşürlər, kitabçalar və digər mətbəə məhsulları nəşr ediləcəkdir. Broşürlər 3 dildə turizm məhsullarının ətraflı təsviri şəklində olacaqdır. Ziyarətçilər məhsulu necə və hardan əldə etmələri barədə məlumatları rahatlıqla öyrənə biləcəklər.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**





Respublika.- 2019.- 16 avqust. S. 3.